# SƏNƏTDƏ YAŞAYAN QƏHRƏMANLIQ



qoşunları qvardiya general-mayoru
Əhəd oğlu Aslanov

*Azərbaycan Respublikasının Prezidenti ötən ilin son günlərindən birində mühüm sərəncam imzaladı. Sərəncamda deyilirdi: "2020-ci ilin yanvar ayında görkəmli hərbi xadim, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Əhəd oğlu Aslanovun anadan olmasının 110 illiyi tamam olur.*

*Bəşəriyyətin yaddaşına ən dağıdıcı müharibə kimi yazılmış İkinci Dünya müharibəsi zamanı faşizm əleyhinə mübarizə aparılmasında və insanlığın qorxunc nasizm təhlükəsindən xilas edilməsində Azərbaycan xalqının da böyük xidmətləri vardır. 1941–1945-ci illərdə Azərbaycanın altı yüz mindən artıq övladı müharibəyə yollanaraq müxtəlif cəbhələrdə vuruşmuş, Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmişdir.*

*Xalqımızın igid oğulları sırasında general Həzi Aslanovun qəhrəmanlığın rəmzinə çevrilmiş adı dərin ehtiramla çəkilir. Dünyanın faşizmdən qurtulması uğrunda ağır döyüşlərdə Həzi Aslanov mahir hərbi sərkərdə istedadı nümayiş etdirmiş və hərb salnaməsində yeni parlaq səhifələr açmışdır. Onun göstərdiyi misilsiz şücaət və başçılıq etdiyi tank alayının müstəsna rəşadəti torpaqlarımızın işğaldan azad edilməsinə hər an hazır olan Azərbaycan Ordusunun bütün şəxsi heyəti üçün əsl qəhrəmanlıq nümunəsidir".*

*Azərbaycan Respublikasının Konstitusiyasını əsas tutan ölkə başçısı imzaladığı sənədlə görkəmli sərkərdənin anadan olmasının 110 illiyinin layiqli şəkildə qeyd olunmasını bir vəzifə kimi qarşıya qoydu, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə Təhsil və Mədəniyyət nazirlikləri ilə birlikdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun 110 illiyinə dair tədbirlər planını hazırlayıb həyata keçirməsini, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etməyi tapşırdı...*

Ömür yoluna yaşadığı tarixin ən qaynar hadisələrinin episentrindən keşmək yazılmış Həzi Əhəd oğlu Aslanov tam zamanında doğulmuşdu. 1910-cu ilin 22 yanvarında Lənkərandakı sadə evlərində dünyaya gələn Həzi çətin uşaqlığını yaşayarkən cahanı silkələyən və eyni zamanda da vətəni Azərbaycan üçün mühüm əhəmiyyətə malik olan bir çox hadisələr baş verdi: Birinci Dünya müharibəsi başladı və bitdi, onun da sakini olduğu çar Rusiyasında iki dağıdıcı inqilab baş verdi, Vətəndaş müharibəsi tüğyan elədi və səngidi, Azərbaycan Xalq Cümhuriyyəti elan olundu, 23 ay yaşadı və süqut etdi, QOELRO və NEP-in gerçəkləşdirilməsinə start verildi, yeni dövlət – SSRİ yaradıldı, ağrılı kolxoz və ordu quruculuğuna başlanıldı...

Atasını təzəcə itirmiş, orta təhsilini başa vurmuş yeniyetmə Həzi bu zaman yaxınlıqdakı kərpic zavodunda atasının yerini tutmuşdu və yaşlılarla birlikdə ağır fəhlə əməyinin çətinliklərini yaşamaqda idi. Amma əsla ruhdan düşmür, işləyə-işləyə öz üzərində çalışırdı. Çox keçmədi ki, bu diribaş, ötkəm və şəksiz istedadlı oğlanı fərq etdilər və onu Tiflisdəki hərbi hazırlıq məktəbinə göndərdilər. Həyətlərində özündən xatirə kimi bir innab ağacı da əkib yola rəvan olan gələcəyin bacarıqlı sərkərdəsinin hərbi istedadı burada tez bir zamanda üzə çıxmağa başladı: istər hərbi biliklərə yiyələnməkdə, istərsə bandi-tizmin tüğyan elədiyi Gürcüstanda zaman-zaman kursantların da qatıldıqları döyüş əməliyyatlarında həmişə fərqləndi.

Təhsil almış, general-mayor, Sovet İttifaqı Qəhrəmanı olmağı bacarmış istedadlı həmyerlimizin yazıya və yazıçılığa olan böyük həvəsindən, millətə və onun mədəniyyətinə bəslədiyi sevgidən soraq verir...

Böyük bir ölkənin ucqarında doğulub böyümüş gənc kadr zabitini digərlərindən fərqləndirən nə idi? Onu hamıya, ilk növbədə öz əsgərlərinə qəhrəman kimi tanıdan hansı xüsusiyyətləri idi? Özü kimi minlərlə digər zabitin arasından seçilməyi bacarıb da 34 yaşın-



Yeni döyüşün konturları cızılır

**ÖZÜ KİMİ MİNLƏRLƏ DİGƏR ZABİTİN ARASINDAN SEÇİLMƏYİ BACARIB DA 34 YAŞINDA BRİQADA KOMANDİRİ VƏ TANK QOŞUNLARI GENERAL-MAYORU OLMAĞI NECƏ BACARMIŞDI? BUNUN ÜÇÜN HƏZİ ƏHƏD OĞLU ONA QÜDRƏTDƏN VERİLMİŞ İKİ XÜSUSİYYƏTƏ – BİLİKLƏRƏ VƏ AXTARIŞLARA OLAN SONSUZ CANATIMINA VƏ HƏR KƏSİN ETİRAF ELƏDİYİ HEYRƏTAMİZ QORXMAZLIĞINA MİNNƏTDAR İDİ...**

Həzi Aslanov əgər hərbçi olmasaydı yəqin ki, jurnalistikanı və yazıçılığı özünə fəaliyyət sahəsi seçərdi. Çünki istər Zaqafqaziya hərbi hazırlıq məktəbində oxuduğu illərdə rota qəzetinə bacarıqla redaktorluq etməsi, Leninqrad süvari məktəbindən başlayaraq qulluq etdiyi bütün hərbi hissələrdən doğmalarına yolladığı rəvan, maraqlı üslublu məktubları, 1941-1945-ci illər maharibəsinin döyüş meydanlarından vaxt tapıb "Pravda"ya göndərdiyi müəllif məqalələri əvvəlcə süvari, sonra isə tank qoşunlarının zabiti kimi Qərbi Ukraynadan fin cəbhəsinə, Lvovdan Moskvaya, Krımdan Stalinqrada, Volqa çayı sahillərindən Baltik dənizi sahillərinədək geniş bir coğrafiyada cəsarətlə döyüşmüş və döyüşə-döyüşə də təcrübəsini artırmış, hərbi akademiyada uğurla da briqada komandiri və tank qoşunları general-mayoru olmağı necə bacarmışdı? Bunun üçün Həzi Əhəd oğlu ona qüdrətdən verilmiş iki xüsusiyyətə - biliklərə və axtarışlara olan sonsuz canatımına və hər kəsin etiraf elədiyi heyrətamiz qorxmazlığına minnətdar idi. Daim öz üzərində çalışır, ruscasını təkmilləşdirir, səlis məqalələr yazır, hər bir döyüş üçün yeni taktika axtarıb tapmağa çalışır və çox vaxt da buna nail olur, digər zabitlərin "İrəli!" dediyi yerdə o, "Ardımca!" hayqırır, çox cəsarətli, tribunal qoxuyan addımlar atmaqdan belə çəkinmirdi. Təsadüfi deyil ki, müxtəlif illərdə Həzi Aslanov haqqında çəkilmiş sənədli film və telesüjetlərdə döyüş dostları onun qorxubilməzliyinə dair neçə-neçə maraqlı faktlar dilə gətirmişlər. Onun ayrı-ayrı

ilə vidalaşır. Z[illegible] evindən çıxan dəfn qafiləsi Çəmbərəkəndə, Bakının ən hündür nöqtəsinə doğru yol alır. Dağüstü parkda dəfn prosesinin, izdihamlı mitinqin göstərildiyi kinolentdə Həzi Aslanovun cəbhədə vuruşması anlarını canlandıran xronikadan da istifadə edilib. Azərbaycan sənədli kinosu tarixində öz yeri olan bu lentin ssenari müəllifi və rejissoru Niyazi Bədəlov, operatorları Seyfulla Bədəlov və Əlibala Ələkbərovdur.

Həzi Aslanov mövzusunun sənətdə inikasından danışarkən onun məzarüstü abidəsindən söz açmamaq mümkün deyil. Azərbaycan memorial heykəltəraşlığının çox dəyərli nümunələrindən olan bu abidə-məzar əfsanəvi generalın dəfnindən dörd il sonra – 1949-cu ildə yaradılıb. Görkəmli Azərbaycan heykəltəraş-monumentalçısı Fuad Əbdürrəhmanovun müəllifi olduğu abidə sənətkarın bundan əvvəlki işlərindən seçilirdi və seçilməli idi də. Buna qədər Gəncədə və Bakıda Nizami Gəncəvinin abidələrini ucaltmış heykəltəraş Həzi Aslanovun məzarüstü abidəsi üzərində çalışarkən işin xarakterindən irəli gələn ciddilik amilini önə çəkib, qəhrəmanın layiq olduğu əzəməti bütünlüklə çatdırmağa nail olub. Qədim türk balballarını xatırladan hündür, enli və yuxarıya doğru incə şəkildə mərtəbələnərək azca daralan baş daşı-monumentin zirvəsində dövrün ideologiyasına uyğun olaraq beşguşəli ulduz yerləşdirən sənətkar, bununla birlikdə abidəyə bəlkə də ilk baxışda çoxlarının diqqətini cəlb etməyən və ustalıqla düşünülmüş mühüm bir element daxil edib: daşın ön tərəfində onun hündürlüyü boyunca milliliyi və dini mənsubiyyəti əks etdirən tağlı girinti yonulub. Postament və qəhrəmanın əzəmətli sinə heykəli məhz bu tağlı giriş-elementin içərisinə yerləşdirilib. Maraqlıdır ki, hazırlandığı materiallar fərqli olsa da məzarüstü abidənin əsasını təşkil edən bu iki element heç də yad görünmür və bir-birini tamamlayaraq ziyarətçiyə müəllifin çatdırmaq istədiyi əzəmət və qürur hissini aşılayır. Məzarın sinə daşının hər iki tərəfindəki çıxıntıbardürlərin tank tırtıllarını xatırlatması və sinə daşının ön tərəfinin mailliyi heykəltəraşın uğurlu tapıntılarındandır. Yəqin ki, ziyarətçilərə məzarda uyuyan qəhrəmanın tankçı olduğunu bildirmək üçün bundan lakonik və eyni zamanda da abidə ilə vəhdət təşkil edən başqa elementlər tapmaq olmazdı...

Azərbaycan kinematoqrafçıları incəsənətimizdə və bütövlükdə mədəniyyətimizdə Həzi Aslanov mövzusuna zaman-zaman ardıcıl şəkildə müraciət etmələri ilə fərqlənmişlər. Belə ki, general haqqında ilk sənədli filmdən 25 il sonra yenidən bu mövzuya müraciət edildi



“Sizi [illegible]” bədii [illegible]

və 1970-ci ildə "Azərbaycanfilm" kinostudiyası tərəfindən rus dilində 18 dəqiqəlik "General Aslanov" qısametrajlı sənədli filmi ekranlara çıxdı. Filmdə xain düşmən gülləsinə tuş gələrək müəmmalı şəkildə ölmüş qəhrəmanın obrazını yaratmaq məqsədilə hərbi illərin tarixi xronikasından, sərkərdənin yaxınlarının, döyüş yoldaşları və dostları - marşal Andrey Yeremenko, general-polkovnik Viktor Obuxov, general-mayor Anatoli Kurkov, akademik Aleksandr Samsonov, texnika elmləri doktoru İvan Poqorelko, Moskva sirkinin məşhur aktyoru Mixail Şuydinun və başqalarının sinxron xatirələrindən istifadə olunub. Film üzərində işləyənlər rejissor Musa Bağırov, ssenari müəllifi Fərəməz Səfiyev, operator Zaur Məhərrəmov, səs operatoru Şamil Kərimovdur.

Həzi Aslanova həsr olunmuş növbəti qısametrajlı sənədli film 1982-ci ildə ekranlara çıxmış bioqrafik janrlı "Estafet"dir. Filmin müşayiətedici mətnindən: "Elə bir ev tapmaq çətindir ki, orada saralmış əsgər məktubları - ata və babalarımızın üçbucaq cəbhə məktubları saxlanılmasın. Əfsanəvi general Həzi Aslanov, qorxmaz Qafur Məmmədov, Gəray Əsədov, minlərlə digər cəsur azərbaycanlı öz əzizlərinə cəbhədən məktublar göndərmişdir. İndi həmin qəhrəmanların övladlarının taleyi necə qurulub? Övladlar öz atalarının yolunu necə davam etdirirlər? Film-reportaj, film-axtarış bu barədədir". Stalinqrad ətrafında faşist işğalçılarının darmadağın olunmasının 40 illiyinə həsr edilən kinolentdə ata-babalarımızın şöhrət yolundan, gənclərin şanlı ənənələri ləyaqətlə davam etdirmələrindən söhbət açılır. Film üzərində rejissor Niyazi Bədəlov, ssenari müəllifləri Niyazi Bədəlov və Rafael Şik, operator Əlibala Ələkbərov və səs operatoru Firudin Hüseynovdan ibarət yaradıcı heyət çalışıb.

Lakin Azərbaycan kino sənətində Həzi Aslanov haqqında çəkilmiş ən böyük kino lenti adı generalın öz məktubundan götürülmüş "Sizi dünyalar qədər sevirdim" bədii filmidir. Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında çəkilmiş 79 dəqiqəlik bu rəngli kinolent hələlik Həzi Aslanovdan bəhs edən yeganə bədii ekran əsəridir. Əsas yaradıcı heyəti ssenari müəllifi Ramiz Fətəliyev, quruluşçu rejissor Rasim İsmayılov, quruluşçu operator Valeri Kərimov, quruluşçu rəssam Nadir Zeynalov, bəstəkar Aqşin Əlizadə, səs operatoru Kamal Seyidovdan ibarət həmin ekran işinin tam heyətinin tərkibi təqribən 40 nəfər idi. İlk baxışı 29 dekabr 1985-ci ildə baş tutmuş və sovet dönəminin son ən böyük milli filmlərindən adlandırıla biləcək kinolentdə Həzi Aslanov rolunu tanınmış Azərbaycan aktyoru Ramiz Novruzov (Xalq artisti Ramiz Novruz) canlandırıb. Filmdəki digər baş rolları isə Viktor Tarasov, Aleksandr Denisov, Şahmar Ələkbərov oynayıblar. Zaqafqaziya və Belarusiya hərbi dairələri qoşunlarının iştirak etdiyi bu tarixi, döyüş, bioqrafik, müharibə janrında olan genişekranlı filmdə mürəkkəb kaskadyor tryuklarından, pirotexnik vasitələrdən geniş istifadə edilib.

Filmdə hadisələr I Pribaltika cəbhəsində axırıncı döyüş zamanı həlak olmuş Həzi Aslanovun ömrünün son günlərində cərəyan edir. Həzi Aslanovun bacarıqlı döyüş zabiti olmaqla yanaşı həm də vətəninə, onun təbiətinə bağlı, oradan gələn nemətlərə uşaqtək sevinən açıq qəlbli Azərbaycan övladı kimi göstərildiyi, eləcə də qəhrəmanın saf məhəbbətinin əks olunduğu səhnələrin inandırıcılıqla verildiyi "Sizi dünyalar qədər sevirdim" kinolenti ssenari, rejissor işi və həm də aktyor oyunu baxımından uğurlu film hesab olunmalıdır.

Bu Azərbaycan filmini keçmiş SSRİ-nin müsəlman respublikaları arasında "Özbəkfilm"in 1967-ci ildə çəkdiyi və qardaş xalqın qəhrəman oğlu, "dəmir general" adlandırılan atıcı diviziyasının komandiri, Sovet İttifaqı Qəhrəmanı general-mayor Sabir Ömər oğlu Rəhimova həsr edilmiş rus dilində 92 dəqiqəlik bədii filmlə müqayisə etmək mümkündür. Lakin döyüş taleyi heyrətamiz dərəcədə Həzi Aslanovun müharibə yoluna bənzəyən, hətta hərbi akademiyada təhsil aldıqları dövr də təxminən eyni olan və həmyerlimizdən cəmi iki ay sonra Polşa torpağında həlak olmuş qorxmaz özbək oğluna həsr edilən "General Rəhimov" filmi istər istehsal tarixi və istərsə də əhatə etdiyi zaman kəsimi, eləcə də kadrlardakı insan və texnikanın çoxluğu baxımından daha dolğundur. Özbəklərin elə həmin ildə çəkdikləri və tankçı Fərhad Abbasova həsr olunmuş rusdilli "Fərhadın qəhrəmanlığı" filmi və bizim "Uzaq sahillərdə" kinolentimiz də sovet illərində çəkilmiş uğurlu müharibə filmlərindəndir.

Əlbəttə, sovet dönəmində istər iki filmini nümunə gətirdiyimiz Özbəkistanda və bizim ölkəmizdə, istərsə də Gürcüstanda, Pribaltikada və bir sıra digər müttəfiq respublikalarda müharibə mövzusuna bu və digər dərəcədə toxunan digər filmlər də çəkilib. Bunların bəziləri isə ümumittifaq və hətta dünya miqyasında çox məşhur kinolentlərə çevrilirdi, məsələn, gürcülərin "Əsgər atası" filmi kimi. Amma qəhrəmanlığı hələ sağlığından incəsənətimizin və deməli, mədəniyyətimizin əbədi yaşayacaq mövzusuna, tərkib hissəsinə çevrilmiş Həzi Aslanov ömrünə həsr etdiyimiz bu qeydlərin finalında biz ötənlərin üzərində dayanmamağı, irəli, gələcəyə baxmağı daha doğru saydıq. Görəsən indi, artıq sadaladığımız filmlərin yaradıldığı dövlətin mövcud olmadığı, dünyanınsa o zamanlar ağla belə gəlməyəcək dərəcədə inkişaf etdiyi bu günümüzdə də müharibə mövzusunda maraqlı və ən əsası, tərbiyəvi filmlər çəkmək mümkündürmü? Bizimlə eyni ittifaqda yaşamış rusların təcrübəsi göstərir ki, həmin suala nəinki müsbət cavab vermək lazımdır, hətta bu cür cavablama çox mühümdür. Belə ki, hazırda hər il Rusiyada təkcə 1941-1945-ci illər müharibəsi mövzusunda ən azı 8-10 film çəkilir. Bunların hamısı yüksək bədii-texniki səviyyədə olmasa da arasında maraqlı ekran əsərləri az deyil. Kinematoqrafın ölkənin-xalqın tarixinin və bugününün tanıdılmasında-təbliğində, onun özünəinamının, milli-mədəni "eqo"sunun gücləndirilməsində, mədəniyyətinin inkişafındakı əvəzsiz rolunu yüksək qiymətləndirən şimal qonşumuz artıq bu yolu keçmiş xalqların təcrübəsindən səmərə ilə bəhrələnmək yolunu davam etdirirlər.



“Həzi [illegible]novun portreti”. Rəssam [illegible] Məmmədov



Əfsanəvi generalın məzarı

Rusiya, Ukrayna, Belarus, Özbəkistan və digər bu kimi keçmiş müttəfiq respublikalardakı müasir kinostudiyalarla müştərək hərbi filmlərin yaradılması, deyək ki, elə qeydlərimizin və xalqımızın qəhrəmanı olan general Həzi Aslanovun döyüş yolundan bəhs edən çoxseriyalı kinolentin hasilə gətirilməsi maraqlı və faydalı iş olmazmı? Axı ən azı həmin dörd ildə xalqlarımız birgə taleyi bölüşmüşlər. Azərbaycan xalqı faşizmə qarşı mübarizədə nə təbii sərvətlərini və iqtisadi imkanlarını, nə elmi potensialını, nə də indiki təbirlə desək, insan resurslarını əsirgəmədi. Və indi də həmin tarixin obyektiv mənzərəsinin birgə yaradılmasını istəməkdə tamamilə haqlıdır. Əslində həmin müharibədə rus xalqının yanında olmuş bütün xalqların buna halal-hümmət haqqı var. Haqqın çatanı tələb eləməksə, doğru olsa gərək. ♦

**Şövkət Səlimov**
jurnalist